# GÖRÜNTÜLÜ VƏ CANLI DƏRSLƏR: KEYFIYYƏTLİ IDARƏ OLUNMA ÜSULLARI

**M.F. Nəbili, K.N. Haqverdiyev**
Bakı Dövlət Universiteti
*medine_kk023a@mail.ru*

Ulu öndərimiz Heydər Əliyevin 15 iyun 1999-cu il tarixli "Azərbaycan Respublikası Təhsil Sahəsində İslahat proqramı" haqqında fərmanı ilə başlayan təhsil islahatının ən böyük uğurları məhz tədrisin keyfiyyətinin yüksəldilməsi ilə dəyərləndirilir desək, səhv etmərik.

Müasir dövrdə təhsilimizin yeni-yeni nailiyyətlər qazanmasında aparıcı vasitə müasir İKT-nin tədrisə tətbiqindən ibarətdir. Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün İKT-nin tədrisə tətbiqi zamanın tələbi olaraq meydana gəlir.

Distant təhsil dövrümüzün tələbidir. Xarici təhsil müəssisələrində artıq çoxdan bu tədrisə üstünlük verilir.

Onlayn təlimin və təlim texnologiyalarının yeganə məqsədi dərslərin planlaşdırılmış çərçivədən geri qalmamasını təmin etməkdir. Bunun üçün hansı işləri görmək daha yaxşı olardı?

- yüksək internet bağlantısı;
- müəllim və tələbənin yüksək dərəcədə qarşılıqlı əlaqəsini yaradan proqramların olması;
- müəllimin texniki tədris ləvazimatları (kompüter, yazı lövhə və s.)